# Yazdım ki, sözüm qala...

**Tanınmış yazıçı-dramaturq, Əməkdar jurnalist Rafiq Səməndər bu gün ömrünün 75 illik zirvəsindən geriyə vüqarla boylanır. Yüzlərlə qənimət ssenarinin, 20 bədii əsərin və 25 pyesin müəllifi olan bu ləyaqətli söz adamı əsərləri ilə özünəməxsusluq qazananlardandır.**

Rafiq Səməndərlə eyni televiziyada çalışmışıq. Uca boyu, şux, yaraşıqlı görkəmi var. Baxışlarından daim qayğı yağır.

Hələ 80-ci illərdə şöhrətli və hörmətli olmasına çoxumuz həsəd aparırdıq. Mən idman proqramlarında redaktor olsam da, bir gözüm elə hey onun işlədiyi ədəbi-dram



verilişləri redaksiyasında idi. Nəhayət, 1992-ci ildə həmin redaksiyaya keçdim, amma 1 il sonra Rafiq müəllim AzTV-ni tərk etdiyi üçün onunla sıx ünsiyyət qurmaq istəyim arzu olaraq qaldı. Buna baxmayaraq, indi də köhnə qələmdaşlarla söhbət edəndə, azman televiziyaçılardan söz düşəndə onun adını birincilər sırasında çəkirik. Çünki teleməkanda silinməz izi qalanlardandır.

Rafiq Səməndər oğlu Ələddinov 1950-ci ildə, yanvarın bu günü Qubada doğulub. 40 yaşını qeyd etməsindən düz 10 gün sonra sovet imperiyası Bakıda "Qanlı şənbə" hadisələrini törədib və Rafiq Səməndər bu mövzuda yazan ilk müəllif olaraq, "Şəhidlər" kitabını ürəyinin qanı, gözünün yaşı ilə araya-ərsəyə gətirib. Qısa vaxt ərzində 146 şəhid haqqında isti-isti, təsirli elegiyalar yazıb. Xalq şairi Bəxtiyar Vahabzadənin ön söz yazdığı, Hidayət Orucovun redaktorluq etdiyi və 150 min tirajla çap olunan, sətirlərindən qan sızan həmin kitabı ilə Rafiq Səməndər imzası ölkədə daha geniş tanınıb. Bakı Dövlət Universitetinin professoru, tanınmış jurnalist Cahangir Məmmədli deyib ki, Rafiq Səməndər öz "Şəhidlər"i ilə şəhidlik haqqında yazılacaq kitabların məktəbini qoyub.

…Yanvarın 20-dən bir neçə gün sonra həmin kitab üçün material toplayarkən o özü də, az qala şəhid olacaqdı. Bu barədə dedikləri: "Səhər tezdən, təxminən, saat 6-7 radələrində Hövsana bir şəhid ailəsi ilə görüşə gedərkən üzlərindən zəhrimar yağan 3 rus əsgəri məni saxladı. İdarə etdiyim maşının pəncərəsinin şüşəsini aşağı salıb jurnalist vəsiqəmi onlara təqdim etdim. Sərxoş əsgərlərdən biri həmin sənədi hirslə əlimdən vurub yerə saldı. Dedim, daha bunların əlindən salamat çıxa bilmərəm. İstədim, maşını sürüb aradan çıxım. Elə mən bu düşüncədə ikən onlardan biri maşının baqajını açmağı tələb etdi. Orada bir neçə şüşə pivə görən kimi elə bil dünyanı onlara bağışladılar..."

Bir dəfə isə adını demədiyi dırnaqarası ziyalılardan biri onu aldadaraq Bakının hərbi komendantı Dubinyakla görüşdürmüşdü ki, hədə-qorxu gəlsinlər və şəhidlər haqqında kitab yazmaqdan çəkindirsinlər. Amma Dubinyak söhbətin sonunda Rafiq Səməndərə komendant saatında şəhərdə hərəkət eləmək üçün icazə kağızı vermişdi. Elə bunun da sayəsində "Şəhidlər" kitabı üçün sərbəst material toplaya bilib və toplu cəmi bir neçə aya nəşr olunub.

Rafiq Səməndər Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində ali təhsil alıb və 1-ci kursdan teleradioda müxbirlik edib. Sonra ştata götürülüb, tədricən irəliləyib və baş redaktor, birlik rəhbəri kimi fəaliyyət dairəsi genişlənib. Daha sonra "BMTİ" telekanalında, "Yurd" jurnalında, "Lider" televiziyasında məsul vəzifələrdə çalışıb. 2005-ci ildən İctimai Televiziya və Radio Yayımları Şirkətində "Ədəbiyyat və İncəsənət" departamentinin, "Xüsusi layihələr üzrə department"in direktoru və "Carçı" film yaradıcılıq birliyinin baş redaktoru olub. Yarım əsr televiziya sahəsində çalışsa da, heç vaxt aparıcılıq etməyib, amma bir çox aparıcı onu özünün ustadı sayır. Çünki o, jurnalist peşəkarlığı, əqidə saflığı ilə daim fərqlənib.

Rafiq müəllimin zəngin filmoqrafiyası "Çətin məsələ" ilə başlayıb, "Dalan" və "Döngələr"dən keçib, onu "Babadağ"a ucaldıb, "Azərbaycan mayakları" cərgəsinə qoşub. "Yaşar Nuri olduğu kimi..." bioqrafik, gülüş ustası Hacıbaba Bağırovun iştirakı ilə çəkilmiş "Sonqulunun sərgüzəştləri", Xalq artistləri Nəsibə Zeynalova, Səyavuş Aslan, Zərnigar Atakişiyevanın həvəslə oynadıqları məşhur "Yuxu" kimi film və film-tamaşaların ssenari müəlliflərindəndir.

Qələm dostumuzun "Girovlar" adlanan çox maraqlı kitabında Qarabağ hadisələrindən bəhs edilir. Güman ki, ruhən həm də əsl televiziyaçı olduğuna görə onun yazdıqları canlı dialoqları, sadədən sadə cümlələrinin güzgü effekti ilə yetərincə təsirli çıxır.

Rafiq Səməndərin yubileyi ilə əlaqədar dünən ona zəng edib təbriklərimi çatdırdım. Novxanıdakı bağ evində dincələn yazıçı-publisist yaradıcılıq planları barədə sualımın cavabından yayınsa da, oxucular üçün nə isə yeni bir sürpriz hazırladığını düşündüm. Çünki bekar qala bilmədiyindən xəbərdaram.

Sağlıq olsun!

***Ə.DOSTƏLİ***
***XQ***